https://doi.org/10.59849/3006-1342.2025.2.71
UOT 94(479.24)

*Aysel Zabit qızı Novruzova*
*Gəncə Dövlət Universiteti*
*Ümumi tarix kafedrasının müəllimi*
*E-mail: aysel.novruzova1505@gmail.com*
*ORCID ID: 0009-0008-8876-3454*

# XIX ƏSR QARABAĞ ƏHALİSİ HAQQINDA

*Məqalədə Qarabağ xanlığı meydana gələnədək bölgənin əhalisinin tərkibi və müstəqil xanlığın yaranmasının əhalinin say nisbətinə təsiri məsələlərinə toxunulmuşdur. Eyni zamanda, Rus-İran müharibələrinin nəticəsində Qarabağ əhalisinə vurulan ziyan, bölgəyə ermənilərin köçürülərək məskunlaşdırılmasından bəhs edilir. Bundan əlavə, "Qarabağnamə"lərdə, dövrün siyahıyaalmalarında və digər mənbələrdə Qarabağ əhalisi haqqında qeyd edilənlər araşdırılmışdır.*

*Açar sözlər:* XIX əsr, Qarabağ, ermənilərin köçürülməsi, əhali, etnik tərkib

## *Giriş*

Siyasi, mədəni və sosial-iqtisadi cəhətdən hər zaman Azərbaycanın ən önəmli ərazilərindən olmuş Qarabağ bölgəsi dünya sivilizasiyasının ən qədim mərkəzləri ilə yan-yana dayanmaqdadır [9, s. 20].

XIX əsrin əvvəllərində Rusiya tərəfindən Şimali Azərbaycan işğal edildikdən sonra ərazinin strateji önəmini nəzərə alan çarizm bu regionu nəzarətdə saxlamaq üçün çox ciddi addımlar atdı. Türkmənçay müqaviləsi imzalanandan sonra Rusiya Cənubi Qafqazdakı mövqelərini möhkəmləndirmək və özünə dayaq yaratmaq məqsədilə Osmanlı və Qacarlar dövlətlərinin ərazilərindən gətirilərək Quzey Azərbaycanın bir çox bölgələrində, o cümlədən Qarabağda ermənilərin kütləvi olaraq məskunlaşdırılmasını təşkil etdi.

**Qarabağ xanlığının meydana gəlmə ərəfəsində bölgənin əhalisi və xanlığın yaranması.** Qarabağ xanlığının müstəqil xanlıq kimi meydana çıxmasından öncəki tarixi hadisələri özündə əks etdirən "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" əhalinin etnik tərkibi cəhətdən verdiyi məlumatların genişliyini ilə seçilir. XVIII əsrdə Azərbaycan ərazisində hələ xanlıqlar meydana gəlmədən öncə Qarabağ əyalətində 19.395 mükəlləfiyyətli ailə başçısı vardı. Hər ailə isə ortalama beş nəfərdən ibarət götürülərsə, əhalinin ümumi sayı təqribən 96.975 nəfərdən ibarət olmuşdur. Lakin bu məlumatlar sadəcə vergi mükəlləfiyyəti daşıyan əhalini əhatə edirdi. Hərbçilər, ruhanilər, habelə onların ailə üzvləri qeyd olunmadığına görə, əslində əhalinin sayı barədə göstərilən bu rəqəm də azdır. Orta hesabla deyə bilərik ki, müsəlman-türk əhalinin ümumilikdə sayı 100 mindən çox olardı. Qeyri-müsəlmanların böyük əksəriyyətini isə XVIII əsrdə də albanlığını unutmayan xristian əhalisi təşkil etmişdir [8, s. 13].

Nadir şahın əmrilə yerinə yetirilən köçürmələr də Qarabağ əhalisinin etnik tərkibinə az da olsa təsirsiz ötüşməmişdi. 1736-cı ildə keçirilən Muğan qurultayından sonra Nadir xan Əfşar Qarabağda yaşayan Cavanşir, Otuziki və Kəbirli tayfalarını onun əleyhinə mövqe tutduqları üçün cəzalandıraraq Xorasana sürgün etmişdi. Bu tayfa birləşmələrinin içərisində Cavanşir tayfasının nümayəndələri də vardı [18, s. 19 ].

1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycanda meydana gələn digər xanlıqlar kimi Qarabağ xanlığı da müstəqil fəaliyyət göstərirdi. Belə ki, Xorasandan Qarabağa 200-ə

qədər süvari tərəfdarı ilə birlikdə geri dönən elat əsilzadələrindən olan görkəmli dövlət xadimi və sərkərdə Pənahəli bəy Qarabağda hakimiyyətini möhkəmləndirdi və çox çətin tarixi şəraitdə, Azərbaycanın şimalında yeni bir xanlığın əsasını qoydu [7, s. 72]. Pənahəli xanın nəslinin mənsub olduğu Cavanşir eli tamamilə türk yurdu idi. Bu el qədim zamanlardan Türküstandan gəlmiş Bəhmənli soyunun bir qolu olan Sarıcalı oymağına aid hesab edilir [13, s. 110]. Pənah xan digər xanların hücumlarından ehtiyat etdiyi üçün xanlığın ərazisində qala tikilməsini lazım bilmişdi. Beləliklə, hazırda Kəbirli mahalında yerləşən Bayat qalasının əsası qoyulmuşdu (1748). Lakin bir sıra hadisələr qalanın yerinin strateji cəhətdən əlverişli olmadığını göstərdi. "Şahbulaq" adı ilə tanınan Tərnəküt qalasının inşasına başlandı [1, s. 69]. Amma davam edən feodal ara müharibələri şəraitində Şahbulaq qalası da etibarlı sığınacaq deyildi. Saray əyanlarından bəziləri xana dəniz səviyyəsindən 1800-2000 metr hündürlükdə yerləşən və üç tərəfdən təbii müdafiəsi olan – bir tərəfdən meşələr, bir tərəfdən uçurum, digər tərəfdən isə sıldırım qayalarla əhatə olunan yeri göstərdilər. Beləcə Şuşa qalasının tikilməsi barədə qərar verildi. Qarabağ xanlığının yeni paytaxtı olan Şuşa şəhəri XVIII əsrin ortalarında yeni bir şəhər kimi meydana çıxsa da öz siyasi, iqtisadi və mədəni inkişafına görə bir sıra Azərbaycan şəhərlərini qabaqlaya bildi [6, s. 51]. Lakin tarixi saxtalaşdırmağa adətkar olan erməni "alim"ləri Şuşa şəhərinin salınması barəsində də yanlış məlumatlar verərək qalanın erməni knyazların əmrilə tikildiyini bildirirlər. Təbii ki, heç bir tarixi mənbəyə əsaslanmayan və elmi təsdiqi olmayan bu fikir sadəcə cəfəngiyyatdır. Əslən erməni olan salnaməçi Mirzə Yusif Qarabaği də qeyd edirdi ki, "Pənah xan özü gedib qalanın yerini görmüş və hər cəhətdən bəyənmişdi" [14, s. 18].

Pənahəli xanın bu qalaları inşa etdirməsi və böyük tikinti işlərinin aparılması da əhali artımı ilə - xanlığa rəiyyət və sənətkarların gəlişi ilə müşahidə olunmuşdur [11, s. 112]. Onlarla yanaşı Qarabağ xanlığı yarandıqdan sonra Naxçıvanın Kəngərli, Borçalının Dəmirçihəsənli kimi elləri Qarabağda yerləşdi [17, s. 36]. Qarabağda məskunlaşan Qaraqoyunlu tayfalarının Qaramanlı və Alpout adlı elləri isə qədim zamanlardan bəri Qarabağın yerli əhalisi olmuşdur. Hətta hazırda Şimali Azərbaycanda, əsasən də Gəncə və Bərdə ərazilərindəki "Qaraman" və "Qaramanlı" kimi yer adları bu oymağa aid hesab olunur [21, s. 27].

Pənahəli xanın oğlu İbrahimxəlil hakimiyyəti dövründə isə Qarabağ xanlığındakı evlərin sayı təxminin 35 minə çatırdı [11, s. 199]. XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəllərindəki hadisələr əlbəttə ki, əhalinin sayına təsirsiz qala bilməzdi: 1816-cı ildə İbrahimxəlil xanın oğlu Əbülfət ağa ilə birlikdə 4 min ailə Qarabağı tərk etdi. 1822-ci ildə isə Qarabağ xanlığı Rusiya tərəfindən ləğv edilərək imperiyanın əyalətlərindən biri oldu. 1823-cü ilin siyahıyaalınmasında Qarabağ xanlığının əhalisinin sayı 90.000 nəfər idi. Şəhər və kəndlərdə olan 18.563 evin 17 mindən çoxunu azərbaycanlı ailələr təşkil edirdi [10, s. 103].

**Qarabağ bölgəsinə ermənilərin köçürülməsi.** Azərbaycanın şimalı ilə cənubu arasında əlaqənin qurulmasında önəmli rol oynayan Qarabağ xanlığı strateji əhəmiyyətə malik idi. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Cənubi Qafqaza və Şərqə qarşı işğalçılıq planları olan Rusiya imperiyasının hərbi-siyasi dairələrində xanlığın əhəmiyyəti xüsusilə qeyd olunurdu. Bu baxımdan Rusiya Qarabağ xanlığının daxili problemlərini öyrənmək üçün xan ailəsi, onların arasındakı münasibətlər və xanlığın əhalisi ilə yaxından maraqlanırdı. Qarabağ xanlığı ilə Rusiya arasında bağlanan Kürəkçay (1805-ci il) müqaviləsindən sonra bu ərazi də Şimali Azərbaycanın digər bölgələri kimi Rusiya imperiyasının tərkibinə qatıldı.

Bundan əlavə, Ağa Məhəmməd şah Qacarın 1795 və 1797-ci illərdəki hücumları ilə də xanlığa və əhaliyə böyük ziyan dəymişdi. Bu hücumlara qədər Qarabağda 60 min ailə yaşayırdı. XIX əsrin əvvəllərində (1805-ci ildə) isə bu rəqəm 10 minə enmişdi. 1804-1813-cü illəri əhatə edən I rus-İran müharibəsi zamanı isə əhalisinin sayı xeyli dərəcədə - 3 dəfəyədək azaldı. Müharibənin sonunda burada sadəcə 3080 ailə vardı [5, s. 64].

Rusiya tərəfindən Quzey Azərbaycan ərazilərinin işğalından sonra özünə xristianlardan ibarət etnik daya q yaratmaq məqsədilə bir çox ərazilərə, həmçinin Qarabağ bölgəsinə kütləvi formada xristian mənşəli, xüsusən də erməni əhalini köçürməyə başladı. Müstəmləkəçi imperiyanın öz maraqlarına uyğun apardığı bu siyasət ərazidə ən qədim dövrlərdən yaşayan yerli əhalinin haqlı narazılığına səbəb olurdu. Belə hal imperiyanın siyasətini istədiyi formada həyata keçirməsinə maneçilik yaradırdı. Bunun qarşısına almaq üçün imperiya birinci addım kimi yerli müsəlman əhalini regiondan sıxışdırıb çıxararaq bu ərazilərə xristianları yerləşdirməyə nail olmaq istəyirdi.

II Rus-İran müharibəsinin (1826-1828-ci illər) yekununda - 1828-ci il fevralın 10-da Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra Rusiya imperiyası özünə siyasi dayaq yaratmaq məqsədilə Qacarlar və Osmanlı dövlətləri ərazisindən mənşəcə xristian olan hayları (indiki erməniləri) kütləvi şəkildə İrəvan və Qarabağ xanlıqlarında yerləşdirməyə başladı. Müqavilə əsasında 8249 erməni ailəsi Zaqafqaziyaya köçürüldü.

Türkmənçay müqaviləsi ilə yanaşı 1829-cu ildə Osmanlı ilə bağlanan Ədirnə müqaviləsinin də mətnində xüsusi olaraq pərçimlədiyi mürtəce maddələrdən yararlanaraq çar Rusiyası işğal etdiyi Şimali Azərbaycan xanlıqlarının ərazisinə ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsi prosesini sürətləndirdi [16, s. 34].

Ümumiyyətlə, dəqiq desək, 1830-cu ilə kimi Rusiya imperiyası Zaqafqaziya ərazisinə İrandan 40 min, Osmanlıdan isə 84 min erməni ailəsini köçürüb məskunlaşdırdı [2, s. 60]. Qarabağ əhalisinin maddi mədəniyyəti, inam və etiqadlarına dair etnoqrafik məlumatları təhlil edərək tarixi mənbələrə istinad edən İ.P.Petruşevski qeyd edirdi ki, "Qarabağ heç zaman erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mərkəz olaraq Azərbaycan xalqına məxsusdur" [3, s. 12]. Ermənilərin köçürülməsi məsələsinə obyektiv yanaşan Castin Makkarti[2] "Genosid olmuşdurmu"? kitabında Çar Rusiyasının müstəmləkə siyasətini xarakterizə edərək yazır ki, "1828 və 1854-cü illərdə ruslar Şərqi Anadoluya hücum edərkən yerli ermənilər onların tərəfində olmuşdular. Hər iki halda özləri ilə 100 min ermənini Qafqaza gətirmiş, onları öz yurdlarından qovulan müsəlmanların evlərində yerləşdirmişdilər. Dəqiqdir ki, 1820-ci ildən 1920-ci ilə kimi 600 minə yaxın erməni əhali imperiyanın ərazisinə köçürülmüşdür. 2 milyondan çox müsəlman isə didərgin salınmışdır" [15, s. 166].

Qarabağ xanlığı ləğv edilərkən əhalisinin etnik tərkibi Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolovun (1816-1827) göstərişi ilə tərtib olunmuş "Təsvir"də öz əksini tapmışdır**.** Bu "Təsvir"ə görə Qarabağ əyalətində yaşayan 20095 ailədən 15729-u azərbaycanlı, 4366-sı erməni idi [20, s. 17]. Rus tədqiqatçısı Zelinski Qafqazda araşdırmalar apararaq XVIII əsrdə İrəvanda və Qarabağda ermənilərin sayca və ərazi baxımından çox az olduğunu yazırdı. O, qeyd edirdi ki, "Zəngəzurda XIX əsrə kimi sadəcə üç erməni kəndi olmuşdur" [22, s. 10].

**"Qarabağnamələr"də Qarabağın əhalisinə dair.** Azərbaycan tarixşünaslığında XIX əsri əhatə edən əsərlərin böyük əksəriyyəti əlyazma halında olmuş, fars və rus dillərində qələmə alınan tarixi əsərlər, tərtib edilən sənədlər isə Azərbaycan türkcəsinə tərcümə olunmamışdır. XIX əsrin birinci yarısında Qarabağ xanlığının tarixinə həsr edilən əsərlər arasında Mirzə Adıgözəl bəy və Mirzə Camalın yazdığı "Qarabağnamələr" xüsusən seçilir. Həm Mirzə Adıgözəl bəy, həm də Mirzə Camal Cavanşir etiraf edirlər ki, onların qələmə aldığı hadisələrin əksər hissəsi şəxsi müşahidələrə, həmçinin yaşlı insanların nəql etdiklərinə əsaslanır. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si Qarabağ tarixi haqqında Azərbaycan dilində yazılmış ilk əsərdir. Əsərin orijinalı hazırda Tiflis şəhərinin ümumi kitabxanasında saxlanılmaqdadır [10, s. 46].

---

[2] Amerikan demoqraf,tarixçi, Kentukki,Luisvilldəki Luisvill Universitetində tarix üzrə professor.

"Qarabağnamələr"də bu bölgənin əhalisinin etnik tərkibi barəsində geniş olmasa da bir sıra məlumatlar verilir. 1804-1813-cü illər və 1826-1828-ci illər Rusiya-İran müharibələri zamanı Qarabağ əhalisinin müəyyən hissəsinin məhv edilməsi, habelə onların öz ata yurdlarını tərk etməsi kimi məsələlərə "Qarabağnamələr"də də yer verilmişdir.

Qeyd olunanlara görə 1828-1830-cu illərdə Qarabağın dağlıq zonasına 200 min nəfər erməni köçürülmüşdür. 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsindən sonra isə Cənubi Qafqaza daha 85000 nəfər ermənınin gətirildiyi göstərilir. 1894-cü ildə Osmanl ərazisində Cənubi Qafqaza 90 min nəfər, 1897-ci ildə isə 10 min nəfər erməni gətirilmişdir. Artıq 1896-cı ildə Cənubi Qafqazda ermənilərin sayı 900 min nəfərə çatırdı. 1908-ci ildə isə bu rəqəm milyonu belə ötür – 1 milyon 300 min [21].

Qarabağ xanlığının silki quruluşu barədə məlumata 1832-ci ildə tərtib olunmuş təsvirlərdə rast gəlinir. Belə ki, 1832-ci ilin kameral təsvirində Qarabağ xanlığı əhalisinin imtiyazlı təbəqələri - əsilzadələr, ruhanilər, maaflar, həmçinin kəndlilər barəsində kəndbəkənd məlumat göstərilir. Bu təsvirlərdə Şuşa şəhəri və Qarabağın 741 kəndi və obasında 20.546 ailə qeydiyyata götürülmüşdür. Bunlardan 13.965 ailəni müsəlmanlar-azərbaycanlılar, 6.491 ailəni isə ermənilər təşkil edirdi [19, s. 267].

Yəni, istər ümumi əyalətdə (68%), istərsə də Şuşa şəhərində (55%) əhalinin əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Özü də ermənilərin Qarabağ ərazisində olduqca fəal formada məskunlaşdırılmasına baxmayaraq. Lakin Rusiyanın köçürmə siyasətinin nəticəsi olaraq XIX əsrin 30-cu illərinin əvvəllərində azərbaycanlıların say nisbəti 64,8%-ə enmiş, ermənilərin sayı isə 34,8%-ə qalxmışdı. Əgər XIX əsrin 30-cu illərində azərbaycanlılar Şuşa əhalisinin yarıdan çoxunu təşkil edirdisə, əsrin ortalarında onların xüsusi çəkisi 48,6%-ə qədər azalır [12, s. 84].

Bu məlumatlar xanlıq əhalisinin sosial silki quruluşu haqqında də təsəvvür yaratmağa şərait yaradır. Ali silk içərisində bəylər əsas yerdə idi. Onlar irsi və şəxsi bəylərə bölünürdülər. Onların kəndlilər üzərində inzibati polis hakimiyyəti hüququ var idi. Eyni zamanda bəylər böyük siyasi qüvvə hesab olunurdular. Xanın hakimiyyətinin möhkəm olması artıq dərəcədə məhz onlardan asılı idi. Qarabağ xanlığı əhalisinin sosial strukturunda ruhanilər də özünəməxsus yer tuturdular. Onlar vergi və mükəlləfiyyətlərdən azad yaşayırdı [4, s. 561]. Xanlıqda vergi və mükəlləfiyyətlərin çoxundan azad edilmiş təbəqə maaflar adlanırdı. Onlar xanlıqda polis - mühafizə rolunu oynayırdılar. Həmçinin müharibə zamanı qoşunun əsasını təşkil edirdilər. "Adları nökər və qoşun dəftərində qeyd olunmayan ailələrin nökər və qoşun əhlindən, habelə adları dəftərdə qeyd olunmuş nökər və qoşun əhlindən heç bir şey alınmırdı. Onlar maaf idilər" [13, s. 144]. Qarabağ xanlığında da cəmiyyətin sosial silki strukturunun sonuncu mərtəbəsini kəndlilər təşkil edirdilər.

## *Nəticə*

Göründüyü kimi, bir daha əmin oluruq ki, 2 əsr əvvələ kimi Qarabağ ərazisində heç bir erməni ünsürü olmamışdır. XIX əsrin əvvəllərinədək - tarixi Azərbaycan torpaqlarına, həmçinin Qarabağa ermənilərin köçürülməsinədək bölgənin yerli əhalisini müsəlman-azərbaycanlılar təşkil etmişdir.

## ƏDƏBİYYAT

1. Ağamalı F. XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı, Azərbaycan Ensiklopediyası, 1999, 302 s.
2. Axundov N. Qarabağ və «Qarabağnamələr». Qarabağnamələr, ikinci kitab. Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s. 398-479.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 628 s.

4. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof. S.S.Əlyarlının redaktəsilə. Bakı, «Azərbaycan» nəşriyyatı, 1996, 872 s.
5. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvəlləri). Bakı, Azərb. SSR EA nəşriyyatı. 1956, s.289.
6. Bakıxanov A. «Gülüstani-İrəm», V fəsil (əlavə). Qarabağnamələr. İkinci kitab. Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.360-397.
7. Əsədzadə İ. Qarabağın Xəmsə Məlikliklləri: Erməni Saxtakarlığının Növbəti Hədəfi. Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsi. Xəbərlər məcmuəsi "İctimai və humanitar elmlər" seriyası. №1 (11). Gəncə-2025. 72-78 səh.
8. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlər H.Məmmədovundur. Bakı, «Şuşa» nəşriyyatı, 2000, 576 s.
9. Həsənov B. Qarabağ bölgəsi XX əsrin əvvəllərində (ictimai-si-yasi, sosial-iqtisadi, mədəni həyat). "İdeal-Print" MMC, Bakı, 2022, 272 s.
10. Hüseynov Y. Qarabağ tarixi mənbələrdə. Bakı: "Şuşa" nəşriyyatı, 2012. – 248 s.
11. Xəzani M. Kitabi-tarixi-Qarabağ // Qarabağnamələr. İkinci kitab, Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov, Bakı, Yazıçı, 1991, s.94-202.
12. İsmayılzadə D.İ. Zaqafqaziya diyarı şəhərlərinin əhalisi XIX əsr - XX əsrin əvvəllərində. Moskva, 1991, səh.69., s.84].
13. Qarabaği M. C. C. Qarabağ tarixi // Qarabağnamələr. Birinci kitab, tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s.104-148.
14. Qarabaği Y. Tarixi-safi // Qarabağnamələr. İkinci kitab, tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.6-91.
15. Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlan, 2009, 344 s.
16. Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: Təhsil Nəşriyyatı, 2009, 143 s.
17. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. Birinci kitab. Tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s. 6-102.
18. Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri [1578-1914].. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı, Yayın № 4, Ankara, c. 1, 1992.
19. Обозрение Российских владений за Кавказом в статическом, этнографическом и финансовом отношениях. СПб., Типография департамента внешней торговли, 1836, ч.3, 392 с.
20. Описание Карабахской провинции, составленное в 1823 году по распоряжению главноуправляющего в Грузии Ермолова действительным статским советником Могилевским и полковником Ермоловым.Тифлис:1866, 260с.
21. Свод статистических данных о населении Закавказскаго края, извлеченных из племенных списков 1886 г. Тифлис, Типография Мартиросианца, 1893, 870 с.
22. Sümer F. Kara Koyunlular. Ankara, Türk Tarih Kurumu Basimevi, 1967, c.1. 167 s.
23. Зелинский С.П. Экономический быт государственных крестьян Зангазурского уезда Елизаветпольской губернии // Материали для изучении экономического быто государственных крестьян Загафгазского края. т. 4., Санкт-Петербург: 1886.

УДК 94 (479.24)

*Айсель Забит кызы Новрузова*
*Гянджинский Государственный Университет*

## О НАСЕЛЕНИИ КАРАБАХА В XIX ВЕКЕ
*РЕЗЮМЕ*

*Ключевые слова:* XIX век, Карабах, переселение армян, население, этнический состав

В статье рассматривается состав населения региона до образования Карабахского ханства и влияние образования независимого ханства на соотношение населения. В то же время обсуждается ущерб, нанесенный населению Карабаха в результате русско-иранских войн и переселения армян в регион. Кроме того, были изучены записи о населении Карабаха в «Карабахнаме», переписях населения того периода и других источниках.

UDC 94 (479.24)

*Aysel Zabit Novruzova*
*Ganja State University*

## ABOUT THE KARABAKH POPULATION IN XIX CENTURY
*SUMMARY*

*Key words:* XIX century, Karabakh, resettlement of Armenians, population, ethnic composition

The article touches upon the population composition of the region before the emergence of the Karabakh Khanate and the impact of the emergence of an independent khanate on the population ratio. At the same time, the damage caused to the Karabakh population as a consequence of the Russian-Iranian wars and the resettlement of armenians in the region are discussed. In addition, the information about the Karabakh population in the “Garabaghname”, censuses of the period and other sources was examined.

***Daxil oldu: 18.06.2025-ci il***